# KNAUF-Qrundirmittel

**Gips döşəmə və suvaqlar üçün astar**

Alman standartı






## Tətbiq sahəsi

KNAUF-Qrundirmittel – sarı, qələviyə davamlı, tərkibində həlledicilər olmayan polimer emulsiyadır.
Emal edilən səthlərin hopdurma qabiliyyətini səmərəli şəkildə nizamlayır və gips suvaq məhlullarının bərabər səviyyədə yapışmasına kömək edir. Tətbiq edilir:
- KNAUF Rotband, Qoldband, MP 75, HP Start gips suvaqlarının çəkilməsindən əvvəl;
- KNAUF Flizen, Fleks, Mramor yapışqanlarından istifadə etməklə üzlük plitənin düzülməsindən əvvəl;
- KNAUF-Boden 15/25/30 tökmə dartaqların qurulması zamanı;
- KNAUF-lövhələrin quraşdırılmasından əvvəl KNAUF-Perlfiks gips yapışqanının köməyi ilə;
- iç və çöl işləri üçün.

## Qablaşdırma və saxlama

Astar 5 və 15 kq-lıq vedrələrə qablaşdırılır. KNAUF-Qrundirmittel astarını temperaturu +0°C-dən +25°C-dək olan otaqda saxlamaq lazımdır. Donmaya və həddən artıq qızmaya imkan verilməməlidir. Açılmamış və zədələnməmiş qablaşdırmada saxlama müddəti – 12 aydır.

# KNAUF-Qrundirmittel

**Gips döşəmə və suvaqlar üçün astar**

Alman standartı

## Astar sərfi

Su ilə qarışdırılmamış şəkildə bir çəkim zamanı

| Material | Ölçü vahidi | Miqdar |
|---|---|---|
| KNAUF-Qrundirmittel | kq/m² | 0,1 |

## Material sərfi

| Material | Su ilə qarışdırma zərurəti | Astar konsentratı məsrəfi, kq/m² |
|---|---|---|
| **Gips suvaqlara** | | |
| Gips, sement-əhəng suvaqlar | 1:3 | 0,1 |
| Məsaməli beton, keramik və silikat kərpic | 1:2 | 0,1 |
| **Gips dartaqlara** | | |
| Sement dartaq, köhnə plitə, sıx beton | 1:2 | 0,1 |
| Gips döşəmə | 1:1 | 0,1 |

## İş qaydası

İşlərə başlamazdan əvvəl emal edilən səthi hazırlamaq zəruridir. Əsas təmiz, tozdan və laylanmış hissəciklərdən təmizlənmiş olmalıdır. Emalın aparıldığı otaqda havanın və əsasın özünün temperaturu tam qurumaya qədər +5°C-dən +25°C-dək olmalıdır.
KNAUF-Qrundirmittel astarını cədvəldə göstərilən nisbətdə su ilə qarışdırmaq lazımdır. Qarışdırılmış vəziyyətdə çəkməməli! Su ilə qarışdırılmış KNAUF-Qrundirmitteli val-vərdənə və ya fırça ilə bərabər səviyyədə emal edilən səthə çəkmək lazımdır. Astar ilə emal edilən səthlə bağlı sonrakı əməliyyatları yalnız o quruduqdan sonra (minimum 6 saat) aparmaq lazımdır.
Astarın qurumasının sonu və sonrakı işlərin başlanması arasındakı zaman mümkün qədər qısa olmalıdır ki, əsasın səthinə tikinti tozunun qonmasından qaçmaq mümkün olsun. KNAUF-Qrundirmittel çəkildikdən sonra istifadə olunmuş alətlər və qablar onlarda qalmış astar qalıqları quruyana qədər su ilə yuyulmalıdır.
Qurumuş KNAUF-Qrundirmittelin təmizlənməsi yalnız mexaniki yolla mümkündür. Astara başqa materiallar əlavə edilməməlidir. Bu onun xüsusiyyətlərinin əhəmiyyətli dərəcədə pisləşməsinə gətirib çıxarır.

## Alətlər

- Enli metal şpatel (200-300 mm enində)
- Xarici və daxili künclər üçün metal şpatel
- Üzlük suvaqlı quru səthin hamarlanması üçün cilalama torlu sürtgəc